**AZƏRBAYCAN RESPUBLİKASI**
**MƏDƏNİYYƏT və TURİZM NAZİRLİYİ**

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MİLLİ KİTABXANASI**

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# FİKRƏT ƏMİROV

## *BİBLİOQRAFİYA*

**BAKI – 2009**

*Tərtib edənlər:* **Tamilla Məmmədova**
**Azadə Novruzova**

*Elmi redaktor:* **Zemfira Abdullayeva**

*Buraxılışa məsul və ixtisas redaktoru:* **Kərim Tahirov**

*Redaktor:* **Gülbəniz Səfərəliyeva**

**Fikrət Əmirov: Biblioqrafiya** /Tərtib ed: T.Məmmədova, A.Novruzova; Elmi red: və ön sözün müəllifi Z.Abdullayeva; İxt. red. və burax. məsul: K.Tahirov; Red.: G.Səfərəliyeva: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxana.- B., 2008.- 175 s. ("Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası) Azərbaycan və rus dillərində

© M.F.Axundov adına Milli Kitabxana, 2009.

# GÖSTƏRİCİ HAQQINDA

Görkəmli bəstəkar, SSRİ Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan SSR EA-nın müxbir üzvü, tanınmış ictimai xadim Fikrət Əmirovun həyat və yaradıcılığını əks etdirən biblioqrafik göstərici ilk dəfə tərtib olunur və 1941-ci ildən 2009-cu ilə qədər çap olunan materialları əhatə edir. Azərbaycan və rus dillərində tərtib olunmuş biblioqrafik göstəricidə bəstəkarın həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli incəsənət xadimlərinin onun haqqında səmimi ürək sözləri, əsərlərinin biblioqrafik siyahısı, (qrammofon valları istisna olmaqla) bəstəkar haqqında çap olunmuş materiallar xronoloji qaydada işlənmişdir.

Göstərici Fikrət Əmirovun yaradıcılığını tədqiq edən və öyrənən elmi işçilər, konservatoriya və musiqi məktəbi tələbələri, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə köməkçi göstəricilər tərtib olunmuşdur.

Göstərici haqqında rəy və təklifləri göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, arzu və iradlarınızı M.F.Axundov adına Azərbaycan Milli

Kitabxanasına (AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 29; E-mail: contact@anl.az; http://www.anl.az) göndərməyinizi xahiş edirik.

# FİKRƏT ƏMİROVUN MUSİQİ DÜNYASI

Azərbaycanı dünyaya tanıdan milli bəstəkarlıq məktəbinin ən layiqli nümayəndələrindən biri olan Fikrət Əmirov sağlığında ölməzlik qazanmış sənətkarlardandır. Onun yaradıcılığı XX əsr Azərbaycan musiqi tarixinin ən parlaq səhifələrindəndir.

Bəstəkarın yaradıcılıq ideyaları, fikirləri geniş dinləyici auditoriyasına ünvanlanmışdır. «Mən həmişə arzulamışam ki, Azərbaycan musiqisi Yer kürəsinin hər bir nöqtəsində səslənsin. Çünki xalqın musiqisi ilə onun özü haqqında fikir yaratmaq olar. Əgər mən bütün həyatımın bu arzusunu qismən də olsa həyata keçirə bilsəm özümü xoşbəxt sanardım», – deyən Fikrət Əmirov sözün əsil mənasında xoşbəxt sənətkardır. Çünki onun arzusu sağlığında ikən həyata keçmişdir.

Fikrət Əmirovun əsərləri yarandığı dövrdən Yer kürəsində «səyahət» edərək təkcə ölkəmizdə deyil, həm də Rusiya, Amerika Birləşmiş Ştatları, Almaniya, İngiltərə, Fransa, Meksika, İran, Türkiyə, Misir, İsveç, Mərakeş və başqa ölkələrdə böyük müvəffəqiyyətlə səslənmiş və dinləyicilərin böyük rəğbətini qazanaraq Azərbaycan mədəniyyətinin nailiyyətlərini nümayiş etdirmişdir.

Bəstəkarın musiqisi Niyazi (Azərbaycan), Natan Raxlin, Nikolay Anosov, Gennadi Rojdestvenski, A.Staseviç, Yevgeni Svetlanov (Rusiya), Leopold Stakovski (ABŞ), Şarl Münş (Fransa), German Abendrot (Almaniya) kimi dünya şöhrətli dirijorların ifasında «Karneqi Holl» (Nyu-York), «Royal Festival Holl» (London) və başqa məşhur konsert salonlarında səslənmişdir.

Fikrət Əmirovun musiqisi öz coşqunluğu, ehtirası, təsirli ifadə gücü, melodikliyi, zəngin harmoniya və orkestr çalarları ilə dinləyicini valeh edir. Əmirov insanın sevincini və kədərini, onun həyəcanlarını, əzablı axtarışlarını, Vətəninə, xalqına, doğma təbiətə, xalq yaradıcılğına dərin məhəbbətini yüksək səmimiyyətlə ifadə edir. Bəstəkar musiqi vasitəsilə insanın zəngin daxili aləmini – xoş xəyallardan faciəvi ümidsizliyə kimi rəngarəng obrazlarla təcəssüm etdirir.

Fikrət Əmirov dünya musiqi sənətində ən görkəmli melodist bəstəkarlarla bir səviyyədə durmağa layiq bəstəkardır. Dahi rus bəstəkarı D.Şostakoviç bu haqda belə deyirdi: «Melodiya Fikrət Əmirov musiqisinin canıdır». Bəstəkarın bütün əsərləri geniş ahəngdarlığı, təkraredilməz melodiyaları ilə seçilir. Onun instrumental əsərləri belə vokal təbiətlidir.

Fikrət Əmirov lirik bəstəkardır. Onun musiqisində ideya, məzmun, forma baxımından asılı olmayaraq lirika həmişə aparıcı amil olmuş, bəstəkarın bütün yaradıcılığına sirayət etmişdir.

Onun əsərlərində dramatik, epik obrazlar, fəlsəfi düşüncələr belə lirik planda verilmişdir. Əmirov musiqisində zərif, incə lirikadan romantik ehtiraslılıq, ekspressiyaya kimi müxtəlif boyalı lirikaya rast gəlmək olar.

Fikrət Əmirov Azərbaycan musiqi tarixinə əsil novator, yeni janr, yeni mövzular gətirmiş bir sənətkar kimi daxil olmuşdur.

Xalqının qədim və zəngin musiqi təfəkkürünü, dahi Üzeyir Hacıbəylinin ənənələrini və müasir bəstəkarlıq məktəbinin yaradıcılıq prinsiplərini dərindən mənimsəyən Fikrət Əmirov əsərləri ilə milli simfonik musiqidə yeni səhifə açdı, milli şərq simfonizmini yaratdı. Onun «Şur», «Kürd-ovşarı», «Gülüstan-Bayatı Şiraz» simfonik muğamları, «Nizami» simfoniyası, «Azərbaycan» süitası, «Sevil» operası, «Min bir gecə» baleti, «Azərbaycan kapriççiosu», «Nəsimi» xoreoqrafik poeması, «Simfonik rəqslər», vokal-instrumental əsərləri dünya musiqi mədəniyyəti xəzinəsinə

dəyərli töhfə olmuş, musiqimizin qızıl fonduna daxil edilmişdir.

Dahi Azərbaycan bəstəkarı Qara Qarayev Fikrət Əmirovun sifmonik mövzuları haqqında 1948-ci ildə belə yazırdı: «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarının ifası respublikamızın musiqi həyatında görkəmli hadisədir. Fikrət Əmirovun yaradıcılıq işinin müvəffəqiyyəti ondadır ki, o, xalq dühasının əsrlərlə yaratdığı bütün xüsusiyyətləri saxlamaqla bərabər, muğamlara yeni məzmun verə bilmişdir. Ölməz musiqi poemaları onun təfsirində yeni tərzdə səslənir. Əmirov öz vəzifəsini dərindən dərk edərək zəngin məzmunlu, xəlqi dilli, orijinal formalı simfonik əsərlər yaratmışdır».

F.Əmirovun simfonik muğamları ümumavropa simfonizminin bədii formalarından «ayrılaraq» tamamilə yeni üslub və yeni janr əmələ gətirmiş, bununla da milli simfonizmi dünya incəsənəti səviyyəsinə qaldırmışdır.

Muğamın lad-tonal sxemini, improvizasiyalı ifadə quruluşunu qoruyub saxlamaqla yanaşı, F.Əmirov Şərq simfonik musiqisinin inkişafı üçün yeni bir yol açan, məzmun, forma və musiqi dili etibarilə müasir simfonik əsərlər yaratmışdır.

1948-ci il avqustun 8-də Bakıda Niyazinin idarəsilə Azərbaycan Dövlət Simfonik orkestrinin ifasında ilk dəfə səsləndikdən sonra «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarının bütün dünyaya təntənəli yürüşü başladı.

1971-ci ildə Moskvada Fikrət Əmirovun «Gülüstan-Bayatı Şiraz» simfonik muğamını dinləyən tanınmış rus musiqişünası Boris Yarustovski konsertdən sonrakı musahibəsində demişdir: «Biz hamımız Fikrət Əmirovun indicə dinlədiyimiz yeni muğamının təsiri altındayıq. Bu əsər onun ilk simfonik müğamlarındakı yaradıcılıq prinsiplərinin ardıcıl inkişafıdır. «Bayatı Şiraz»ın kompozisiyası görkəmli Azərbaycan bəstəkarının istedadının yeni yaradıcılıq hüdudlarını açır. Əmirov xalq musiqisindən ilhamlı əsərləri üçün mənbə kimi istifadə etməyi bacarır və öz əsərlərində xalq müdrikliyini yüksək peşəkarlıqla uyğunlaşdırır. «Bayatı Şiraz»da Şərq və Qərb musiqi mədəniyyətinin bir-birinə yaradıcı təsirini görən xarici musiqiçilər bəstəkarın yaradıcılığının məhz bu cəhətini yüksək qiymətləndirmişlər».

Əvvəlki muğamlardan fərqli olaraq «Gülüstan-Bayatı Şiraz»ın partiturasına daxil edilmiş monoloq tərzli vokaliz xalq muğamının obrazlı-

emosional xüsusiyyətlərini ifadə edərək lirik obrazların subyektivliyini daha da gücləndirir.

Fikrət Əmirovun yaradıcılıq diapazonunun çox geniş olmasına baxmayaraq, iki janr – simfonik və səhnə musiqisi bəstəkarın böyük müvəffəqiyyət qazandığı sahələrdən biridir. Dahi Azərbaycan şairi Nizaminin yubileyi münasibətilə yazdığı simli alətlər üçün «Nizami» simfoniyası bəstəkarın böyük Nizami dühasına, şairin şəxsiyyətinə olan dərin məhəbbətinin ifadəsidir.

Orkestr yazısının görkəmli sənətkarlarından olan, öz dəst-xəttinə malik mahir kolorit ustası F.Əmirov bu simfoniyada eynicinsli alətlərin tembr birləşmələrindən istifadə edərək rəngarəng effektlər əldə etmiş, dahi  şairin poetik obrazını böyük ustalıqla yaratmışdır. Simfoniya ahəngdarlığı, musiqi palitrası, dinamik və intensiv inkişafı, harmonik dilinin əlvanlığı ilə geniş dlinləyici kütləsinin rəğbətini qazanmış, Azərbaycan musiqi mədəniyyətində görkəmli yer tutmuşdur. «Nizami» simfoniyasını 1965-ci ildə Londonun «Royal Festival Holl» salonunda dinləyən otuz bir min dinləyici ecazkar, özünəməxsus tembrli musiqidən, parlaq temperamentli melodizmdən heyran olmuşdular.

Firkət Əmirovun «Sevil» operası müasir mövzuda lirik-psixoloji janrda yazılmış ilk Azərbaycan operası olmaqla, respublikada opera sənətinin inkişafında mühüm mərhələ oldu və bəstəkarın novatorluğunu bir daha nümayiş etdirdi.

Müasir mövzuya müraciət edən bəstəkar opera səhnəsinə şəhər məişətini, yeni ifadə vasitələri tələb edən yeni mühiti gətirmişdir. F.Əmirovun yaradıcılığının əsas ifadə vasitəsi olan melodiya, operanın musiqisində emosional başlanğıc rolunu oynayır. Operanın musiqisi dolğunluğu, zəngin harmonik dili, orkestr rəngarəngliyi, simfonikləşmə tendensiyaları ilə diqqəti cəlb edir. Bəstəkar operada müxtəlif musiqi formalarını – ariya, ariozo, reçetativlər, ansambl, xor epizodlarını böyük sərbəstlik və ustalıqla istifadə etmişdir. Operanın musiqisində mühüm rol oynayan leytmotivlər qəhrəmanların səciyyəsində böyük əhəmiyyət kəsb edir.

«Sevil» Ü.Hacıbəylinin «Koroğlu» operasından sonra yaranmış ən uğurlu və ilk tamaşalardan bu günə kimi gözəl sənət əsəri olaraq qalır. Operanın dirijoru, bəstəkar Əfrasiyab Bədəlbəyli 1953-cü ildə yazırdı: «Opera teatrının kollektivi böyük həyəcan və yaradıcılıq hissi ilə «Sevil» operası üzərində işə başladı. Bu, Cəfər Cabbarlının

pyesi üçün inandırıcı musiqi həllini tapmış bəstəkarın böyük yaradıcılıq uğurudur. O, yüksək peşəkarlıq səviyyəli opera yaratmışdır. Operanın dəyərli cəhəti ondadır ki, bəstəkar qəhrəmanların şəxsi taleyini deyil, məhz yüksək vətəndaşlıq pafosu ilə sosial dramını ön plana çəkmişdir».

«Muzıkalnaya jizn» jurnalı 1959-cu ildə yazırdı: «F.Əmirovun «Sevil» operası nəinki Azərbaycan, həmçinin bütün çoxmillətli sovet musiqisinin nailiyyətidir».

Fikrət Əmirov məşhur «Min bir gecə» nağılları mövzusuna müraciət edərkən artıq Rimski-Korsakovun «Şəhrizad» kimi dahiyanə simfonik süitası mövcud idi. Tanınmış musiqişünas Pavel Xuçuanın sözləri ilə desək, bu süjetə müraciət etmək istəyən bəstəkar «böyük yaradıcılıq cəsarəti, yüksək peşəkarlıq, ustalıq və zəngin Şərq musiqisinin incə, təbii hisslərinə malik olmalı idi». Bütün bu keyfiyyətlərin hamısı Fikrət Əmirova xas idi.

Baletin librettosuna daxil edilmiş üç nağılın hər biri («Sindbad və sehirli Ruh quşu», «Ələddin və gözəl Budur», «Əlibaba və qırx quldur») sərbəst nağıl olmaqla bərabər, bəstəkara xas böyük

ustalıqla monolit bir əsər şəklində təqdim olunmuşdur.

Əsərin partiturası milli ruhla aşılanmış zəngin, parlaq çalarlarla dolu melodikası, lad-intonasiya, harmoniya, metroritmik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Rəqs ritmlərinin alovlu dinamikası, muğam-improvizasiya səhifələrinin dolğun təhkiyəsi, incə mahnı lirikası məşhur nağıllara yeni həyat verdi. Baletin musiqi dilində Azərbaycan və ərəb folklorundan yaranan intonasiya və ritmlərin üzvi sintezi özünü aydın büruzə verir.

Balet 1979-cu ildə Azərbaycan Opaera və Balet Tetarında tamaşaya qoyulduqdan sonra Moskva, Leninqrad, Tbilisi, Qorki, Novosibirsk, Dnepropetrovsk şəhərlərində, Bolqarıstan, Mərakeş, Misirdə uğurla nümayiş etdirilmiş və bəstəkara şöhrət qazandırmışdır.

Fikrət Əmirov «Gözün aydın», «Ürəkçalanlar» musiqili komediyalarının, «Şeyx Sənan», «1905-ci ildə», «Vaqif», «Xanlar», «Cavanşir» və başqa dram tamaşalarına, «Böyük dayaq», «Səhər», «Mən ki gözəl deyildim» kinofilmlərinə yazılmış musiqinin də müəllifidir.

Bəstəkarın «Səhər» filminin musiqisi əsasında yazdığı «Azərbaycan kapriççiosu» «Rus simfonizminin ən yaxşı ənənələrində yazılmış və üslub etibarilə P.Çaykovskinin «İtalyan kapriççiosu»na yaxın olan bir əsər kimi səciyyələnir» (A.Staseviç).

«Azərbaycan» süitası, «Simfonik rəqslər», «Simfonik qravürlər», «Nəsimi haqqında dastan» F.Əmirovun simfonik orkestrin ifadə imkanlarını böyük həssaslıqla duyan, zəngin yaradıcılıq təxəyyülünə malik bir sənətkar nümayiş etdirir.

Vokal janrı Fikrət Əmirovun yaradıcılığında əsas yer tutmasa da bəstəkarın daim diqqət mərkəzində olmuşdur. O, üç romans və müxtəlif janrda iyirmi beşdən artıq mahnının müəllifidir. Əmirov romans və mahnı janrlarına xas olan üslub xüsusiyyətlərini saxlayaraq onları özünəməxsus müasir səslənmə ilə dolğunlaşdırır, fərdimləşdirir. Bəstəkarın vokal lirikasının digər əhəmiyyətli xüsusiyyəti onun xalq musiqi mənbələrindən, xüsusilə də muğam intonasiyalarından böyük məharətlə və istedadla istiafdə etməsidir. H.Cavidin «Şeyx Sənan» pyesinə yazılmış musiqidən «Kor ərəbin mahnısı» buna misaldır. «Gülüm», «Ulduz», «İki sahil» romansları, «Sev-

diyim yardır mənim», «Güləрəm gülsən», «Baharımsan», «Mən səni araram», «Göygöl» kimi mahnılar bu janrın gözəl nümunələrindəndir. Bəstəkar mahnılarında Nizami, Məmməd Səid Ordubadi, Aleksandr Puşkin, Mixail Lermontov, Səməd Vurğun, Tələt Əyyubov, Süleyman Rüstəm, Zeynal Cabbarzadə və başqa görkəmli şairlərin şeirlərinə miüraciət etmişdir.

Fikrət Əmirovun yaradıcılıq irsində fortepiano üçün əsərlər də xüsusi yer tutur. Onun «Uşaq lövhələri», «On iki miniatür» silsilələri, prelüdləri, ekspromtları, variasiyaları bir çox pianoçunun repertuarında, eləcə də tədris proqramlarında özünəməxsus yer tutmaqla, milli fortepiano musiqimizi daha da zənginləşdirmişdir.

Fikrət Əmirov dahi bəstəkar olmaqla yanaşı, həm də görkəmli musiqi-ictimai xadim idi. O, ayrı-ayrı illərdə müxtəlif musiqi-yaradıcı təşkilatlara rəhbərlik etmişdir. Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, Mirzə Fətəli Axundov adına Opera və Balet Teatrının direktoru, SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqlarının katibi, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü olmuş, Azərbaycan Res-

publikası Ali Sovetinə (IV, VII çağırış) deputat seçilmişdir.

Bəstəkarlar İttifaqına rəhbərlik etdiyi dövrdə F.Əmirov İttifaqın keçirdiyi plenum və qurultaylarda musiqi mədəniyyəti, bəstəkar yaradıcılığı, musiqimizin ən aktual problemləri ilə bağlı çıxışlarında maraqlı fikirlərini həmkarları ilə bölüşürdü. Onun dövri mətbuatda nəşr olunmuş məqalələri ustad sənətkarın estetik baxışları, dərin təfəkkürü, narahat qəlb döyüntüləri, vətəndaş mövqeyinin aydın təhzahürüdür. «Qurultayda nə deyərdim?», «Musiqi tərbiyə vasitəsidir», «Simfonik musiqimizə bir nəzər», «Musiqi mədəniyyəti irsimizi öyrənmək naminə», «Ölməz sənətkar», «İfaçılıq – tələbkarlıq», «Gənclərə ürək sözüm» kimi çıxışlara nəzər yetirmək kifayətdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında göstərdiyi misilsiz xidmətlərinə görə Fikrət Əmirov SSRİ və Azərbaycan xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı fəxri adlara layiq görülmüş, iki Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

Ömrünün sonuna kimi daim yeni-yeni idleyalar, planlar, yeni əsərlər yaratmaq eşqi ilə yaşay-

an bəstəkar bu gün aramızda olmasa da, onun ölməz musiqisi, yaratdığı şah əsərlər Azərbaycan xalqının milli sərvəti olaraq həmişə yaşayacaq və öz müəllifini də əbədi yaşadacaq.

Öz lirası ilə bütün dünyanı fəth edən qədim əsatir qəhrəmanları kimi Fikrət Əmirov da doğma incəsənətini ümumbəşər səviyyəsinə ucaldaraq müasir Azərbaycan musiqi mədniyyətində fəxri yer qazanmışdır.

**Zemfira Abdullayeva,**
**sənətşünaslıq namizədi,**
**professoru**

## FİKRƏT ƏMİROVUN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**1922** - Fikrət Məşədi Cəmil oğlu Əmirov 1922-ci il noyabr ayının 22-də Gəncə şəhərində məşhur tarzən və xanəndə ailəsində anadan olmuşdur.

**1938** - Gəncə şəhərində ümumtəhsil orta məktəbini və tar sinfi üzrə musiqi məktəbini bitirmişdir.

**1939** - Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdur.

**1942** - İlk təhsil illərində fortepiano üçün "Variasiyalar", "Ulduz" romansını, dahi Azərbaycan şairi Nizaminin xatirəsinə "Simfonik Poema" və Səməd Vurğunun "Xanlar" pyesinə (Əlyazısı) musiqi bəstələmişdir.

- Böyük Vətən müharibəsi illərində ordu sıralarında vuruşmuş, Voronej cəbhəsində ağır yaralanmışdır.

**1943** - Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsinə "Simfonik poema" yazmışdır.

- Nizaminin sözlərinə "Gülüm" romansını bəstələmişdir.

**1944** -"Ürəkçalanlar" musiqili komediyasını yazmışdır.

**1945** - Z.Hacıbəyovla birgə Azərbaycan Xalq Çalğı Orkestri üçün "Cəngi" əsərini bəstələmişdir.

**1946** -"Gözün aydın" musiqili komediyasını, "Romantik sonata", "Skripka, fortepiano və orkestr üçün ikili konsert" əsərlərini bəstələmişdir.

**1947** - Nizaminin xatirəsinə həsr etdiyi "Simli orkestr üçün simfoniya"sını yaratmışdır.

- M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri olmuşdur.

| | |
|---|---|
| **1948** | - Azərbaycan Dövlət Konservatoriyasını (Prof. Zeydmanın bəstəkarlıq sinfi üzrə) bitirmişdir. “Ulduz” – bir pərdəli operanı diplom işi kimi yazmışdır. |
| | - “Şur” və “Kürd ovşarı” simfonik muğamlarını yaratmışdır.<br>- A.Zeynallının xatirəsinə “Elegiya” əsərini bəstələmişdir. |
| **1949** | - “Şur” və “Kürd ovşarı” simfonik muğamlarına görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.<br>- Ü.Hacıbəyova ithaf poema – skripkalar, violençel və iki fortepiano üçün əsərini bəstələmişdir. |
| **1950-1952** | - Dörd hissədən ibarət “Azərbaycan” süitasını, instrumental kamera musiqisi və vokal əsərlərini yazmışdır. |
| **1953** | - C.Cabbarlının eyni adlı pyesi əsasında “Sevil” operasını yazmış, dekabrın 25-də operanın premyerası olmuşdur. |

- Alban mövzusunda süita (E.Nəzirova ilə birlikdə) əsərini yazmışdır.

**1954-1952** - H.Cavidin "Şeyx Sənan", C.Cabbarlının "1905-ci ildə", S.Vurğunun "Vaqif" pyeslərinə musiqi bəstələmiş, fortepiano üçün 6 uşaq pyesi, 12 miniatür yazmışdır.

**1955** - Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

**1956-1959** - Azərbaycan Opera və Balet Teatrının direktoru olmuşdur.

**1956** - "O olmasın bu olsun" musiqili komediyasını kinofilm üçün orkestrləşdirmişdir.

**1957** - Azərbaycan SSR Xalq artisti adına layiq görülmüşdür.

**1958** - Bəstəkar Elmira Nəzirova ilə birlikdə ərəb mövzusu əsasında "Fortepiano ilə orkestr üçün konsert" yazmışdır.

- Azərbaycan Bəstəkarlar İttifaqının katibi olmuşdur.

**1959** - Lenin ordeni ilə təltif edilmişdir.

**1960-1963** - "Azərbaycan" kapriççiosu, "Simfonik rəqslər" əsərlərini və "Səhər" kinofilminə musiqi yazmışdır.

**1960** - "Azərbaycan" süitası ABŞ-da səslənilib (Nyu-York və Filadelfiya şəhər. Dirijor L.Stokovski)

**1964** - "Sevil" operası Moskvada P.İ.Çaykovski adına konsert zalında Ümumittifaq Radiosu və Televiziyasının simfonik orkestri, xoru və solistləri tərəfindən rus dilində ifa olunmuşdur.

- Ü.Hacıbəyova ithaf Poema əsəri Kamera Orkestri üçün yeni redaktədə işlənib.

**1965** - SSRİ Xalq artisti fəxri adına layiq görülmüşdür.

| | |
|---|---|
| **1966** | -“Arşın mal alan” musiqili komediyasının yeni redaksiyasını film üçün işləyib. |
| **1967** | - Respublika Lenin komsomolu mükafatı laureatı adına layiq görülmüşdür. |
| **1968** | -“Azərbaycan kapriççiosu” Niyazinin rəhbərliyi ilə Türkiyədə səslənmişdir.<br>- “Gürcüstan. Rustavelli” xor və simfonik orkestr üçün kontata bəstələmişdir. |
| **1970** | - “Sevil” operası ekranlaşdırılmışdır. |
| **1971** | -“Gülüstan-Bayatı-Şiraz” simfonik muğamını yaratmışdır. |
| **1973** | - “Nəsimi haqqında dastan” xoreoqrafik poema yazmışdır. |
| **1974** | - Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.<br>- SSRİ Bəstəkarlar İttifaqının katibi vəzifəsində çalışmışdır. |

- Respublika Ali Sovetinin deputatı seçilmişdir.

**1975** - "Azərbaycan qravürləri" Böyük Simfonik Orkestr üçün triptix bəstələmişdir.

**1976** - "Xəzəri fəth edənlər" vokal-xoreoqrafik poema yazmışdır.

**1977** - "Sevil" operası Niyazinin rəhbərliyi ilə Səmərqənddə tamaşaya qoyulmuşdur.

- "İyirmi mahnı" adlı fortepiano ilə oxumaq üçün not məcmuəsi çapdan çıxmışdır.

- "Nəsimi haqqında dastan" – faciə musiqisi: Böyük Simfonik Orkestr üçün partitura nəşr olunmuşdur.

- Bu əsər D.Rojdesvenskinin rəhbərliyi ilə Stokholm filarmoniyasının orkestrinin ifasında səslənmişdir.

- Xor və simfonik orkestr üçün Poema bəstələmişdir.

**1978** - "Azərbaycan qravürləri" simfonik orkestr üçün partitura çapdan çıxmışdır.

**1979** - Ərəb musiqi intonasiyaları və ritmlərindən istifadə edərək "Min bir gecə" baletini yazmışdır. – "Forte-piano üçün əsərlər" not məcmuəsi nəşr olunmuşdur.

**1980** - "Min bir gecə" baletinə görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

**1980** - Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

**1981** - Tbilisi və Qorki şəhərlərinin opera teatrlarında "Min bir gecə" baletinin premyerası olmuşdur.
- Moskvanın Kreml zalında "Min bir gecə" baletinin premyerası olmuşdur.

**1982** - Novosibirskdə "Min bir gecə" baletinin premyerası olmuşdur.
- Mərakeşdə "Min bir gecə" baletinin

premyerası olmuşdur.
- Sovet musiqisinin inkişafı sahəsində xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Lenin ordeni, "Oraq və Çəkic" qızıl medalı ilə təltif olunmuşdur.
- Bolqarıstanda – Varna Opera Teatrının səhnəsində "Min bir gecə" baletinin premyerası olmuşdur. Premyerada müəllif iştirak etmişdir.

**1983** - Ümumittifaq radiosu ilə "Xalq musiqisi xəzinəsi" silsiləsindən veriliş hazırlanmışdır. Verilişin aparıcısı Fikrət Əmirov olmuşdur.

**1984** - "Nizami" baletinin əlyazması başa çatmışdır.
- Fevralın 20-də vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur.
- Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblına Fikrət Əmirovun adı verilmişdir.
- Bakıda 6 sayl Uşaq İncəsənət məktəbinə F.Əmirovun adı verilmişdir.

**1991** - M.F.Axundov adına Opera və Balet Teatrında "Nizami" baleti tamaşaya qoyulmuşdur (Nizami Gəncəvinin anadan olmasının 850 illik yubileyi münasibətilə).

**2003** - Moskvada "Min bir gecə" baleti yeni quruluşda Böyük Teatrın səhnəsində nümayiş etdirlmişdir.

## GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR FİKRƏT ƏMİROV HAQQINDA

Fikrət Əmirovun yüksək sənətkarlıqla bəstələdiyi əsərlər dünyanın məşhur dirijorlarının repertuarına daxil olmuş, bir çox xarici ölkələrin konsert salonlarında səslənərək Azərbaycan musiqi sənətinə böyük şöhrət gətirmişdir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının*
*ümummilli lideri*

...Musiqili Komediya Teatrının açılışı müvəffəqiyyətli işdir, Fikrətin müvəffəqiyyətli işidir. Fikrətin müvəffəqiyyəti sevindiricidir.

**Üzeyir Hacıbəyov,**
*bəstəkar*

Melodiya Fikrət Əmirov yaradıcılığının canı, mayasıdır. Bəstəkar öz əsərlərində folklordan geniş bəhrələnir. Azərbaycan folklorunun Əmirov musiqisinə bilavasitə təsiri göz qabağındadır.

**Dmitri Şostakoviç,**
*bəstəkar, Sosialist*
*Əməyi Qəhrəmanı*

Fikrət Əmirov nəinki respublikamızın, həm də bütün ölkəmizin görkəmli, ən istedadlı bəstəkarlarından biridir. Onun adı Sovet İttifaqının hüdudlarından uzaqlarda da məşhurdur. Fikrət Əmirov istedadla bəstələnmiş, həyatımıza daxil olmuş bir çox parlaq əsərlərin müəllifidir.

**Qara Qarayev,**
*bəstəkar, SSRİ*
*Xalq artisti*

...Azərbaycan xalq musiqisinə yaxşı bələd olan Fikrət Əmirovun müvəffəqiyyəti çox böyükdür. "Sevil" operası müəllifin tükənməz xalq muğamlarımızın xəzinəsindən aldığı və məharətlə istifadə etdiyi cazibəli melodiyalarla zəngindir. Xalq musiqisi opera üçün çox zəngin musiqi materialı olmuşdur.

**Səməd Vurğun,**
*Xalq şairi*

... Mən bulaq gördüm. Saf və şəffaf bir bulaq. Əmirovun mahnıları saf və təravətlidir. Mən çinar

gördüm. Başı göyləri yaran, kökləri torpaqda dayanan bir çinar. Bu gün Əmirovun sənət çinarının göylərə ucalması onun doğma torpağa bağlılığıdır.

**Nəbi Xəzri,**
*Xalq şairi*

Fikrət Əmirov doğma torpaqdan start götürmüş, zirvədən-zirvəyə ucalmış Sovet Azərbaycanının bəstəkarlıq şöhrətini qitədən-qitəyə yaymışdır.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Əziz Əmirov cənabalrı! Biz Hyustonda və Texasda sizin simfonik muğamlarınızı ifa edəndə orkestr də, dinləyicilər də heyran qalmışdılar. Verdiyiniz zövq üçün sizə minnətdarıq.

**Leopold Stokovski,**
*dirijor*

Fikrət Əmirov zəmanəmizin görkəmli xadimlərindən biridir. O, hətta musiqi ilə üzdən tanış olan adamları aludə eləməyə qadirdir. Qədim muğamları müasir musiqi dilinə ilk dəfə Fikrət Əmirov çevir-

mişdir. Bütün dünyanın mütəxəssisləri bunu layiqincə qiymətləndirmişlər.

**Əbdürrəhman Finişi,**
*bəstəkar*

Son dərəcə parlaq, həyat həqiqəti güclü və əsl xəlqi əsər olan "Nəsimi haqqında dastan" poemasının ifası İsveçin musiqi həyatında unudulmaz hadisəyə çevrilmiş, isveçli musiqisevərləri Azərbaycanın zəngin musiqi mədəniyyəti ilə bir daha yaxından tanış etmişdir. Əmirov musiqisinin Stokholmda belə hərarət və məhəbbətlə qarşılanması təminat verir ki, Azərbaycan musiqisi ilə bu ilk tanışlıq gələcəkdə də hökmən davam etdiriləcəkdir.

**Benqt Ulof Ensterm,**
*Stokholm Konsert*
*Sarayının direktoru,*

**Hans Nudmark,**
*İsveç Kral Musiqi*
*Akademiyasının prezidenti*

Bütün kollektivimizi bunca cuşə gətirən ikinci bir tamaşa yadıma gəlmir. Tbilisidə F.Əmirovun

“Min bir gecə” baletinin ilk tamaşası mədəniyyətlərin əsl beynəlmiləl dostluq bayramına çevrildi. F.Əmirovun emosional zənginliyi ilə fərqlənən ehtiraslı musiqisi tamaşanın uğur qazanmasında mühüm rol oynadı.

**Zurab Ancaparidze,**
*SSRİ Xalq artisti*

Əziz Əmirov cənabları! Sizi sevindirmək istəyirəm ki, Leopold Stokovski “Robin Qud Dell” orkestri ilə “Azərbaycan” simfonik süitasını çalmışdır. Əsər məharətlə ifa olunmuş və 31 min dinləyicinin əksəriyyəti heyranlığını bildirmiş, onu bu cür konsertlər silsiləsində ifa olunan müstəsna bir əsər kimi qiymətləndirmişdir.

**Teodor A.Sider,**
*Filadelfiya (ABŞ) Kitabxanasının musiqi kuratoru*

“Azərbaycan kapriççiosu” olduqca şux əsərdir, o, xalqın sevinc hisslərini ifadə edir, nikbin ruhu ilə, təravətli dili ilə dinləyicini məftun edir.

**Natan Raxlin,**
*SSRİ Xalq artisti*

Fikrət Əmirovun musiqisi böyük və şanlı yol, narahat axtarışlar, parlaq kəşflər yoludur, bəstəkar üçün bu yol boyunca mütərəqqi milli ənənələri yaşatmış və sosializm realizmi məcrasında novatorcasına zənginləşdirmişdir...

**Tixon Xrennikov,**
*bəstəkar, SSRİ Xalq artisti*

Fikrətin musiqisi xalqımızın könül mahnıları kimi səslənir, onu düşündürür, həyəcanlandırır, sevindirir.

**Nurəddin Babayev,**
*yazıçı*

Gözəllik və ağıl, dərinlik və orijinallıq, məna və aydınlıq – Fikrət Əmirov musiqisinin ruhunu, canını təşkil edən əsas keyfiyyətlərdəndir.

**Əlağa Kürçaylı**,
*Xalq şairi*

Xalq artisti F.Əmirovun əsərləri məndə həmişə güclü, parlaq təəssüratlar oyadır. Çünki onlar tarixi keçmişimizi, bu günümüzü, insan əməllərinin vüsətini gerçəkliklə və bədii surətdə xəyalımızda canlandırır. Musiqi insan taleyilə dərindən maraqlanan, ictimai həyatda fəal iştirak edən bu coşqun, ehtiraslı insanın təbii təzahürüdür.

**Səttar Bəhlulzadə,**
*Xalq rəssamı*

## ƏSƏRLƏRİ

### 1942

**1. Variasiyalar** [Not]: Fortepiano üçün.- B.: Musnəşr, 1942.- 20 s.

### 1946

**2. Gülərəm gülsən** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. M.S.Ordubadinindir.- B.: Azmusnəşr, 1946.- 7 s.

### 1947

**3. Gülüm** [Not] /Azərbaycan bəstəkarlarının Nizaminin qəzəllərinə yazdıqları nəğmə və romanslar: Səs və f-p üçün /Redaktoru F.Əmirov.- B., 1947.- S.28.

**4. Romantik sonata** [Not]: Si bemol minor: Fortepiano üçün.- B.: Azmusnəşr, 1947.- 30 s.

**5. Variasiyalar** [Not]: Fortepiano üçün.- B.: Musnəşr, 1947.- 20 s.

## 1948

**6. İki prelüd** [Not]: Lya minor və do diyez minor.- B.: Azmusnəşr, 1948.- 8 s.

## 1949

**7. Qış yolu** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. A.Puşkinindir; Tərcümə edəni A.Səhhət.- B.: Azmusnəşr, 1949.- 14. s.

**8. Uşaq pyesləri** [Not]: Kiçik nağıl və yaz nəğməsi: Fortepiano üçün.- B.: Azmusnəşr, 1949.- 4 s.

## 1950

**9. Azərbaycan elləri** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. M.Dilbazinindir.- B.: Azmusnəşr, 1950.- 9 s.

**10. Şur** [Not]: Azərbaycan muğamı: Simfonik orkestr üçün.- Partitura.- M.-L.: Qosmuzqiz, 1950.- 83 s.

**11. Şur; Kürd ovşarı** [Not]: Simfonik muğamları.- Partitura.- M.-L.: Musnəşr, 1950.- 88 s.

**12. Uşaq nəğmələri** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. Z.Cabbarzadənindir.- B.: Azmusnəşr, 1950.- 17 s.

Notun içindəkilər: Quşlar; Qatar; Quzum; Bahar gəlir.

## 1951

**13. Elegiya** [Not]: Violonçel, yaxud alt ilə fortepiano üçün.- M.-L.: Muzqiz, 1951.- 3 s.

**14. Quşlar** [Not] /Söz. Z.Cabbarzadənindir //İbtidai məktəb üçün nəğmələr məcmuəsi.- B., 1951.- S. 37.

**15. Quzum** [Not] /Söz. Z.Cabbarzadənindir //İbtidai məktəb üçün nəğmələr məcmuəsi.- B., 1951.- S. 34.

**16. Kolxozçu qızlar mahnısı** [Not] /Söz. Ə.Cəmilindir /İbtidai məktəb üçün nəğmələr məcmuəsi.- B., 1951.- S. 55.

**17. Kürd ovşarı** [Not]: Azərbaycan muğamı: Simfonik orkestr üçün.- Partitura.- M.-L.: Qosmuzqiz, 1951.- 72 s.

**18. Vətən nəğməsi** [Not] /Söz. R.Rzanındır //Azərbaycan bəstəkarlarının qarışıq xor və fortepiano üçün əsərlər məcmuəsi.- B., 1951.- S. 60-68.

## 1952

**19. Aşıqsayağı** [Not]: Fleyta ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1952.- 7 s.

**20. Azərbaycan xalq mahnıları** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1952.- 16 s.

Notun içindəkilər: Küçələrə su səpmişəm; Evləri var xana-xana.

**21. Bulaq başında** [Not]: Fleyta (qoboy, yaxud klarnet) ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1952.- 5 s.

**22. Dəniz neftçiləri nəğməsi** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. Ə.Tələtindir //Azərbaycan gəncləri.- 1952.- 1iyun.- S. 4.

**23. Elegiya** [Not]: Violonçel, yaxud alt ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1952.- 3 s.

**24. Əlaçılar nəğməsi** [Not] **/**Söz. T.Əyyubovundur //Pioner.- 1952.- № 4.- S. 11.

**25. Məktəbli nəğməsi** [Not]: Azyaşlı məktəblilər üçün: Fortepiano ilə oxumaq üçün /Söz. Ə.Tələtindir.- B.: Azmusnəşr, 1952.- 5 s.

**26. Rəqs** [Not]: Qoboy (klarnet, yaxud faqot) ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1952.- 3 s.

## 1953

**27. Azərbaycan xalq mövzuları** əsasında pyes [Not]: Fortepiano üçün.- B.: Azmusnəşr, 1953.- 5 s.

**28. Xatirə** [Not]: Skripka, violonçel və fortepiano üçün.- B.: Azmusnəşr, 1953.- 7 s.

**29. Ulduz** [Not]: Romans: Fortepiano ilə oxumaq üçün /Söz. M.Lermontovundur; Tərcümə M.Rahimindir.-B.: Azmusnəşr, 1953.- 7 s.

## 1954

**30. Adajio** [Not]: Qoboy (klarnet, yaxud faqot) ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1954.- 3 s.

**31. Lirik nəğmə** [Not]: Klarnet (yaxud fleyta) ilə fortepiano üçün.- B.: Azmusnəşr, 1954.- 3 s.

**32. Sevdiyim yardır mənim** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1954.- 7 s.

## 1955

**33. Azərbaycan xalq mahnıları** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1955.- 28 s.

Notun içindəkilər: Küçələrə su səpmişəm; Ay dilbər; Qoy gülüm gəlsin, ay nənə; Evləri var xana-xana.

**34. Baharımsan** [Not]: Lirik mahnılar /Söz. S.Vurğunundur .- B., 1955.- S. 9.

**35. Gülüm** [Not]: Fortepiano ilə oxumaq üçün /Söz. Nizaminindir.- B.: Azmusnəşr, 1955.- 6 s.

**36. 12 miniatür** [Not]: Fortepiano üçün.- B.: Azmus - nəşr, 1955.- 22 s.

## 1956

**37. Alban xalq mövzuları** əsasında süita [Not]: İki fortepiano üçün /E.Nəzirova ilə birlikdə yazılıb.- B.: Azmusnəşr, 1956. - 47 s.

**38. 6 uşaq pyesləri** [Not]: Fortepiano üçün.- B.: Azmusnəşr, 1956.- 12 s.

## 1957

**39. Azərbaycan** [Not]: Simfonik süita: mi be-mol major: 4 hissəli: 1.Gənclik gözəli; 2.Çoban-bayatı; 3.Kolxozda şənlik; 4.Bakı haqqında mahnı.- Partitura.- M.: Sovetskiy kompozitor, 1957.- 90 s.

**40. Kor ərəbin mahnısı** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1957.- 8 s.

**41. Sevil** [Not]: Proloq və epiloqla 4 pərdəli opera /Librettosu T.Əyyubovundur.- B.: Azmusnəşr, 1957.- 222 s.

## 1958

**42. Şur** [Not]: Azərbaycan muğamı: Simfonik orkestr üçün.- Partitura.- B.: Azmusnəşr, 1958.- 88 s.

**43. Şur; Kürd ovşarı** [Not]: Simfonik muğamları. Partitura.- B.: Azmusnəşr, 1958.- 149 s.

**44. Uşaq lövhələri** [Not]: Fortepiano üçün.- B.: Azmusnəşr, 1958.- 16 s.

## 1959

**45. Kürd ovşarı** [Not]: Azərbaycan muğamı: Simfonik orkestr üçün.- Partitura.- B.: Azmusnəşr, 1959.- 75 s.

**46. Məhəbbət mahnıları** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1959.- 26 s.

Notun içindəkilər: Kor ərəbin mahnısı: (H.Cavidin "Şeyx Sənan" dramasına yazılmış musiqidən); Saqinin mahnısı: (M.Hüseynin "Cavanşir" pyesinə yazılmış musiqidən); "Gözün aydın" musiqili komediyasından Alayın ariozası.

## 1960

**47. İki mahnı** [Not]: Fortepiano ilə xor üçün.- B.: Azmusnəşr, 1960.- 2 s.

**48. Odlar ölkəsi** [Not] /Söz. T.Mütəllibovundur //Azərbaycan gəncləri.- 1960.- 24 aprel.- S. 2.

**49. 12 miniatür** [Not]: Fortepiano üçün.- M.: Sov. kompozitor, 1960.- 20 s.- (Uşaq musiqi məktəblərinin IV-VI sinifləri üçün).

**50. "Səhər" kinofilmindən mahnılar** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1960.- 8 s.

## 1961

**51. İki prelüd** [Not]: Lya minor və do diyez minor: Fortepiano üçün.- B.: Azmusnəşr, 1961.- 8 s.

**52. Simfoniya** [Not]: "Nizaminin xatirəsinə": Böyük orkestr üçün.- Partitura.- M.: Sov. kompozitor, 1961.- 72 s.

## 1962

**53. Bip-bipin nəğmələri** [Not]: Fortepiano ilə oxumaq üçün: Uşaq nəğmələri məcmuəsi.- B.: Azmusnəşr, 1962.- 22 s.

Notun içindəkilər: Bip-bipin nəğməsi; Qatar; Bizim həyət; Quzum; Tənbəl; Bahar gəlir.

**54. Gözün aydın** [Not]: 3 pərdəli, 4 şəkilli musiqili komediya /Librettosu Məhərrəm Əlizadənin, şeirlər Tələt Əyyubovundur.- B.: Azərnəşr, 1962.- 172 s.

**55. Qatar** [Not] /Skripka üçün işləyəni F.Əmirov //Atakişiyev T., Barşak Y. Skripkada çalmaq üçün ibtidai tədris kitabı.- B., 1962.- S. 99

**56. Sevil** [Not]: 3 pərdə 4 şəkilli opera /Librettosu T.Əyyubovundur; Klavir.- M.: Sov. kompozitor, 1962.- 275 s.

**57. Zarafat** [Not]: Üç simli domra ilə fortepiano üçün köçürmə.- M.: Musnəşr, 1962.- 12 s.- (Domristin kitabxanası).

## 1963

**58. Azərbaycan kapriççiosu** [Not]: Simfonik orkestr üçün.- Partitura.- M.: Sov kompozitor, 1963.- 57 s.

**59. 12 miniatür** [Not]: Fortepiano üçün.- B.:Azərnəşr, 1963.- 21 s.

**60. "Sevil"** operasından vals [Not] /Azərbaycan bəstəkarlarının seçilmiş əsərləri: Fortepianoda 4 əllə çalmaq üçün.- B., 1963.- S. 13.

**61. Uşaq lövhələri** [Not]: Fortepiano üçün.- M.: Sov. kompozitor, 1963.- 14 s. (Uşaq musiqi məktəblərinin II-V sinif şagirdləri üçün).

## 1964

**62. Simfoniya** [Not]: Nizaminin xatirəsinə: Simli orkestr üçün.- Partitura.- B.: Azərnəşr, 1964.- 78 s.

## 1965

**63. Lirik rəqs** [Not] /Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə: Skripka ilə fortepiano üçün.- B.,1965.-S.10.

**64. Simfonik rəqslər** [Not]: Böyük simfonik orkestr üçün.- Partitura.- M.: Muzıka, 1965.- 70 s.

**65. Skertso** [Not] /Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə: Skripka ilə fortepiano üçün.- B., 1965.- S. 3.

**66. Üzeyir Hacıbəyova xatirə** [Not]: Kamera orkestri üçün; **Elegiya**: Simli orkestr üçün (A.Zeynallının xatirəsinə).- Partitura.- B.: Azərnəşr, 1965.- 19 s.

**67. Vals** [Not] /Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə: Skripka ilə fortepiano üçün.- B., 1965.- S. 8.

## 1966

**68. Ərəb mövzuları əsasında** konsert [Not]: Fortepiano ilə simfonik orkestr üçün: fa diyez minor: 3 hissədən ibarət /Bəstəkar E.Nəzirova ilə birlikdə yazılıb.- B.: Azərnəşr, 1966.- 76 s.

**69. Seçilmiş ariyalar** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azmusnəşr, 1966.- 29 s.

**70. "Sevil" operasından Sevilin** ariyası [Not] //Azərbaycan bəstəkarlarının operalarından seçilmiş ariyalar: Fortepiano ilə oxumaq üçün.- B., 1966.- S. 29.

**71. Şur** [Not]: Simfonik muğamı /Fortepianoda 4 əllə çalmaq üçün köçürəni Musa Mirzəyev.- B.: Azərnəşr, 1966.- 38 s.

## 1967

**72. Gözəlim sənsən** [Not] /Söz. Xalqındır; İşləyəni: T.Elçin //Azərbaycan bəstəkarlarının seçilmiş xor əsərləri.- B., 1967.- [S. 15-21].

**73. Sevil** [Not]: 3 pərdə 4 şəkilli opera /Librettosu: T.Əyyubovundur; C.Cabbarlının eyni adlı draması əsasında; klavir.- B.: Azərnəşr, 1967.- 288 s.

**74. Simfoniya** [Not]: Nizaminin xatirəsinə: Simli orkestr üçün.- Partitura.- M.: Muzıka, 1967.- 74 s.

## 1968

**75. "Azərbaycan"** simfonik süita [Not]: Mi bemol major: 4 hissəli: 1. Gənclik gözəli; 2. Çoban-bayatı; 3. Kolxozda şənlik; 4. Bakı haqqında mahnı.- Partitura.- B.: Azərnəşr, 1968.- 91 s.

**76. Konsert** [Not]: Fortepiano ilə xalq çalğı alətləri orkestri üçün: Si minor: 3 hissəli /Bəstəkar A.Babayevlə birlikdə yazılıb.- Partitura.- B.: Azərnəşr, 1968.- 111 s.

**77. Uşaq albomu** [Not]: Simfonik lövhələr: Nəfəsli ağac, zərb və simli alətlər üçün.- Partitura.- B.: Azərnəşr, 1968.- 46 s.

**78. Uşaq lövhələri** [Not]: Fortepiano üçün.- M.: Sov. kompozitor, 1968.- 16 s.- (Uşaq musiqi məktəblərinin II-IV sinifləri üçün).

## 1969

**79. Ərəb mövzuları əsasında** konsert [Not]: Fortepiano ilə simfonik orkestr üçün: do diyez minor /Bəstəkar E.Nəzirova ilə birlikdə yazılıb.- M.: Musnəşr, 1969.- 76 s.

**80. Noktürn** [Not]: Skripka ilə fortepiano üçün /Sovet bəstəkarlarının pyesləri.- M., 1969.- S. 16-18.

**81. Sevdiyim yardır mənim** [Not]: Fortepiano ilə oxumaq üçün.- B., 1969.- 48 s.

Notun içindəkilər: Sevdiyim yardır mənim; Reyhan; Azərbaycan elləri; Aslanın ariyası; Kor ərəbin mahnısı; Mən səni araram; Laylay; Gülərəm gülsən.

**82. Üzeyir Hacıbəyova xatirə** [Not]: Kamera orkestri üçün; **Elegiya**: Simli orkestr üçün.- Partitura.- M.: Muzıka, 1969.-26 s.

## 1970

**83. Azərbaycan kapriççiosu** [Not]: Simfonik orkestr üçün.- Partitura.- B.: Azərnəşr, 1970.- 59 s.

**84. Gürcüstan. Rustaveli** [Not]: Qarışıq xor və simfonik orkestr üçün.- Partitura.- B.: Azərnəşr, 1970.- 40 s.

**85. Marş** [Not]: Fortepiano üçün //Pyeslər məcmuəsi.- M., 1970.- S. 17.

**86. Məktəblilər nəğməsi** [Not] /Mirişli R., Mkrtıçev A. Kamança məktəbi.- B., 1970.- S. 71.

## 1971

**87. Azərbaycan muğamları:** Şur; Kürd ovşarı [Not]: Simfonik orkestr üçün.- Partitura.- M.: Muzıka, 1971.- 148 s.

**88. Ulduz** [Not]: /Söz. M. Lermontovundur; Tərcüməsi M.Rahimindir //Azərbaycan bəstəkarlarının vokal əsərləri.- Kiyev., 1971.- S. 38-43.

## 1972

**89. İki romans** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: Azərnəşr, 1972.- 12 s.

## 1973

**90. Variasiyalar** [Not]: Fortepiano üçün.- B.: Azərnəşr, 1973.- 20 s.

## 1974

**91. "Gülüstan Bayatı-Şiraz"** muğamı [Not]: Böyük simfonik orkestr üçün.- Partitura.- M.: Sov. kompozitor, 1974.- 77 s.

## 1975

**92. Uşaq lövhələri** [Not]: Fortepiano üçün.- M.: Sov. kompozitor, 1975.- 34 s.- (II-V sinif; IV-VI sinif)

## 1976

**93. Fleyta ilə fortepiano** üçün pyeslər [Not].- M.: Muzıka, 1976.- 28 s.- (Fleytaçı A.V.Korneyevə xatirə)

Notun içindəkilər: Aşıqsayağı; Laylay; Rəqs; Azərbaycan dağlarında; Bulaq başında; Noktürn.

**94. Gülüm** [Not]: /Söz. N.Gəncəvinindir //Mahnılar: Mahnıların notsuz sözləri.- B., 1976.- S.7.

**95. Sevil** [Not]: 2 pərdə 15 şəkilli opera.- Klavir.- B.: İşıq, 1976.- 262 s.

## 1977

**96. Xəzəri fəth edənlər** [Not]: Poema: Simfonik orkestr üçün.- Partitura.- M.: Muzıka, 1977.- 40 s.

**97. İyirmi mahnı** [Not]: Fortepiano ilə oxumaq üçün.- B.: İşıq, 1977.- 111 s.

Notun içindəkilər: Azərbaycan elləri /Sözləri M.Dilbazinindir; Reyhan /Sözləri T.Əyyubovundur; Gülür ellər /Sözləri T.Elçinindir; Mən səni araram /Sözləri T.Əyyubovundur; Göy-göl /Sözləri T.Elçinindir; Neyləmişəm /Sözləri T.Elçinindir; Sevdiyim yardır mənim /Sözləri xalqındır; Aslanın mahnısı ("Səhər" kinofilmindən /Sözləri Nəbi Xəzrinindir; Toy mahnısı /Sözləri T.Elçinindir; Baharımsan /Sözləri S.Vurğunundur; Saqinin mahnısı (Mehdi Hüseynin "Cavanşir" pyesinə yazılmış musiqidən); Gülərəm gülsən /Sözləri M.S.Ordubadinindir; Gülüm /Sözləri Nizaminindir; Pambıqçı qızlar /Sözləri T.Elçinindir; Kor ərəbin mahnısı (H.Cavidin "Şeyx Sənan" dramasına yazılmış müsiqidən); Mavi nəğmə /Sözləri C.Məmmədovundur; Aman, ey yar /Sözləri T.Əyyubovundur; Laylay /Sözləri N.Xəzrinindir; Gecə keçdi /Sözləri Elçinindir.

**98. Nəsimi haqqında dastan** [Not]: Faciə musiqisi: Böyük simfonik orkestr üçün.- Partitura.- M.: Sov. kompozitor, 1977.- 100 s.

## 1978

**99. Azərbaycan kapriççiosu** [Not]: Simfonik orkestr üçün.- Partitura.- M.: Muzıka, 1978.- 63 s.

**100. Azərbaycan qravürləri** [Not]: Simfonik orkestr üçün.- Partitura.- M.: Sov. kompozitor, 1978.- 56 s.

**101. İki ekspromt** [Not]: Fortepiano üçün.- B.: İşıq, 1978.- 12 s.

## 1979

**102. Fortepiano əsərləri** [Not].- B.: İşıq, 1979.- 74 s.

Notun içindəkilər: Uşaq lövhələri; 12 miniatür; Lirik pyes; İki ekspromt; İki prelüd; Variasiyalar.

**103. Seçilmiş pyeslər** [Not]: Skripka ilə fortepiano üçün.- M.: Sov. kompozitor, 1979.- 26 s.

Notun içindəkilər: Muğam-poema; Elegiya; Ballada; Məhəbbət rəqsi.

## 1980

**104. Məhəbbət rəqsi; Muğam** [Not]: Qoboy ilə fortepiano üçün.- M.: Muzıka, 1980.- 7 s.

**105. Odlar ölkəsi** [Not]: **/**Söz. T.Mütəllibovundur /Azərbaycan bəstəkarlarının mahnıları.- B., 1980.- S. 40.

## 1981

**106. Altı pyes** [Not]: Qoboy ilə fortepiano üçün.- B.: İşıq, 1981.- 28 s.

Notun içindəkilər: Ballada; Məhəbbət rəqsi; Muğam; Şənlik rəqsi; Beşik mahnısı; Məhəbbət mahnısı.

**107. Poema monoloq** [Not]: Elegiya: Violonçel ilə fortepiano üçün.- M.: Muzıka, 1981.- 11 s.

**108. Pyeslər** [Not]: Fleyta və fortepiano üçün.- B.: İşıq, 1981.- 25 s.

**109. "Səhər" kinofilmindən laylay** [Not] //Sovet kino musiqisi: Fortepiano üçün asanlaşdırılmış köçürmələr.- B., 1981.- S. 21.

## 1982

**110. Sevil** [Not]: Proloqla 3 pərdəli opera /C.Cabbarlının eyni adlı dramı əsasında. Librettosu: T.Əyyubovundur.- Klavir.- B.: İşıq, 1982.- 226 s.

## 1983

**111. Min bir gecə** [Not]: İki pərdəli balet: Ərəb xalq nağılları əsasında /Librettosu: M.İbra-

himbəyov, N.Nəzirova və R.İbrahimbəyovundur.- Klavir.- M.: Sov. kompozitor, 1983.- 95 s.

## 1984

**112. Nizami** [Not]: Balet.- Klavir.- 1984.

## 1985

**113. Fortepiano üçün əsərlər** [Not].- M.: Sov. kompozitor, 1985.- 72 s.

**114. Laylay** [Not]: Tar ilə fortepiano üçün /Köçürəni R.Quliyev /Azərbaycan bəstəkarlarının pyesləri.- B., 1985.- S. 14-17.

## SƏSYAZMALAR

**115. Alabəzək yuxular** /Azərbaycan bəstəkarlarının mahnıları.- Melodiya: D- 28573.- 1-ci qram. valında.

**116. Bahar gəlir /**Sözləri: Z.Cabbarzadənindir; İfa edir: Z.Məmmədova və Xalq Çalğı Alətləri Ansamblı.- Melodiya: D-28570.- 1-ci üzdə.

**117. Bip-bipin nəğməsi;** Tənbəl /Sözləri: T.Elçinindir; Oxuyur: E.Rəhimova və Xalq çalğı alətləri ansamblı //Azərbaycan məktəblərində nəğmə dərsi: 3-cü sinif.- Melodiya: D-28573.- 1-ci qram. valında.

**118. Bir gül seçdim /**Sözləri T.Elçinindir; Oxuyur K.Gəncəli.- Melodiya: D-144441.- 2-ci üzdə.

**119. Bizim həyət /**Sözləri T.Elçinindir; Oxuyur Z.Rəhimova və Xalq çalğı alətləri ansamblı //Azərbaycan məktəblərində nəğmə dərsi: 2-ci sinif.- Melodiya: D-28572.- 2-ci qram. valında.

**120. Bulaq başında /**Fleytada çalır Telman Hacıyev //Azərbaycan bəstəkarlarının əsərləri.- Melodiya: D-12831.- 1-ci üzdə.

**121. Ərəb mövzusu əsasında** fortepiano ilə orkestr üçün konsert: Re bemol major /İfa edir: Ümumittifaq Radiosunun Simfonik Orkestri, dirijor

J.Svetlanov.- Aprel z-du: D-421617.- 1-ci qram.valında.

Əsər bəstəkar Elmira Nəzirova ilə birlikdə yazılmışdır. Əsərləri.- Melodiya: D-12831.- 1-ci üzdə.

**122. Fortepiano pyesləri** /İfa edir: Zöhrab Adıgözəlzadə /f-p/.- Melodiya: D-12591.- Melodiya: D-144441.- 2-ci üzdə.

**123. Gülərəm gülsən** /Sözləri M.Ordubadinindir /İfa edir: Bülbül //Bülbülün sənəti.- Melodiya.- D-05701.- 1-ci üzdə.

**124. Gülüstan-Bayatı-Şiraz:** Simfonik muğam /İfa edir: Ümumittifaq Radio və Televiziyasının Böyük Simfonik Orkestri, dirijor L.Stokovski.- Melodiya: D-06819.- 1-ci üzdə.

**125. Korun mahnısı:** H.Cavidin "Şeyx Sənan" pyesindən /İfa edir: İ.Rzayev və Xalq çalğı alətləri üçlüyü.- Aprel z-du: D-34752.- 1 üz.

**126. Kürd ovşarı:** Simfonik muğam /İfa edir: Xyüston Simfonik Orkestri, dirijor L.Stokovski.- Melodiya: D-033326.- 1 üz.

**127. Kürd ovşarı:** Simfonik muğam /İfa edir: simfonik orkestr, dirijor Niyazi-Aprel z-du: D-02819.- 1 üz.

**128. Qatar** /Sözləri Z.Cabbarzadənindir; İfa edir: Z.Rəhimova və Xalq çalğı alətləri ansamblı

//Azərbaycan məktəblərində nəğmə dərsi: 2-ci sinif.- Melodiya: D-28572.- 2-ci qram. valında.

**129. Mən səni araram** /Sözləri: T.Əyyubovundur //"Qaya" vokal-instrumental ansamblı: Konsert.- Melodiya: D-06819.- 1-ci üzdə.

**130. Mən səni araram** /Sözləri T.Əyyubovundur //Oxuyur İlhamə Quliyeva.- Melodiya: D-3008974.- 2-ci üzdə:

**131. Min bir gecə:** İki pərdəli balet /Librettosu Maqsud və Rüstəm İbrahimbəyovlar və N.Nəzirovanındır; İfa edir: F.Qasımova, xor və simfonik orkestr, dirijor N.Rzayev.- Melodiya: D-19373-376.- 2 qrv.

**132. Nizami:** Simli orkestr üçün simfoniya /İfa edir: Azərbaycan Dövlət Kamera Orkestri, dirijor Nazim Rzayev. Melodiya: D-16501.- 1 üz; dirijor Rojdestvenski.- Melodiya: D-08711.- 1 üz.

